

# “Azərbaycan xalçaçılığı: keçmişdən gələcəyə”

*Ramid İbrahimov*
*“Bizim yol” qəzetinin reportyoru*
*(II yerin qalibi)*

Köndələn çayının sahilində yerləşən, XIX-XX əsrlərdə qoyunçuluq təsərrüfatı və xalçaları ilə məşhur olan Füzuli rayonunun Kürdmahmudlu kəndindəyəm. Söhbət etdiyim sakinlər deyirlər ki, Kürdmahmudlu xalçaları xanların dəyərli hədiyyəsi, tacirlərin bahalı malları, gəlinlərin cehizi olub.

Burada yaşayanlar Kəngərli türk tayfalarıdır. Onlar əsasən heyvandarlıqla məşğul olduqlarından gah aranda, gah da yaylaqda yaşamalı olublar. Odur ki, məişətdə, yaxud köç zamanı müxtəlif toxuculuq məmulatlarından istifadə ediblər. Əlbəttə, xalçasız, xurcunsuz, heybəsiz, məfrəşsiz köç həyatı olmaz. Bu da xalq sənətinin ən zəngin növlərindən olan xalçaçılığın yaranmasında və inkişafında mühüm rol oynayıb.

Kürdmahmudluda dünyaya gələn Sumqayıt Dövlət Universitetinin kafedra müdiri, pedaqoji elmlər namizədi Tariyel Məmmədov bildirir ki, o, mənsub olduğu Kəngərli tayfasının həyat və məşğuliyyətini araşdırıb, bu barədə mətbuatda və kitablarda məqalələri dərc olunub. Həmsöhbətim məlumatları əsasən yaşlı insanlarla söhbət edərək topladığını vurğuladı.



Müasir dövrdə kəngərlilər çoxluq olaraq Naxçıvanda və Qarabağda məskunlaşıblar. Türkmənşəli Kəngərli tayfalarına "cavanşirlər" də deyiblər. Onlar əvvəllər İranla İraqın sərhəddində yaşayıblar.

T.Məmmədovun sözlərinə görə, Kürdmahmudlu sakinləri olan kəngərlilər əsasən qoyunçuluğa və xalçaçılığa görə tanınıb: "Ötən əsrlərdə xalçaçılıq bu tayfanın həyatında mühüm yer tutub. Bu da təsadüfi deyil. Kəngərlilərin qoyun, dəvə sürüləri olub. Bu da toxuculuq sənətinin yaranmasına və inkişafına səbəb olub. Xalçaların toxunuşunda xüsusi cins qoyunların bel hissəsindən qırxılan, yüksək keyfiyyətli yundan istifadə ediblər. Bu yun daha yumşaq və parlaq olduğundan xalçalar uzun müddət öz keyfiyyətini və rəngini qoruyub saxlaya bilir.

Kəngərlilər toxuculuqda dəvə yunundan da istifadə ediblər. Dəvə yunu əsrlər boyu ən keyfiyyətli, ondan hazırlanan paltar və xalçalar isə ən davamlı hesab olunub.

Yun lifə, lif ilməyə, ilmə isə xalça-palaza çevrilib. Təbii boyaq vasitələri isə xalçaçılığın inkişafına güclü təkan verib. Xalçaçılar hesab edir ki, xalçanın keyfiyyətinin ilk zəmanəti iplərin düzgün boyanmasıdır. İpləri boyamaq üçün Şuşaya və Şəkiyə aparıblar. Kürdmahmudluda da boyaçılar olub. Hətta xalçaçıların özləri toxuyacaqları ipləri belə boyayıblar. Belə ki, onlar müxtəlif bitkilərdən, gül-çiçəklərdən, ağac qabıqlarından fərqli rənglər alaraq ipləri boyayıblar. Deyilənə görə, hətta xalçalar isladıldıqda belə, rəng buraxmazdılar. İndi də Kürdmahmudluda xalça toxunur, amma iplər ənənəvi şəkildə boyanmır.

XX əsrin əvvəllərində və ortalarında toxunan xalçalar evlərdə indi də var. Həmin xalçalara toxunanda sizə məlum olacaq ki, Kürdmahmudlu xalçaları ağır çəkili, hündür, lakin yumşaq və parlaq xovlu xalçalardır. Bu xalçalar iplərin zərifliyi və ilmələrin sıxlığı ilə fərqlənir. Kürdmahmudlu xalçalarının şöhrət qazanmasının səbəbləri də bunlar olub".

**"Gül xalçası" və "Qızılquş xalçası"**

Araşdırmaçı bildirir ki, Kürdmahmudlu məhəllələrinin özlərinə məxsus xalça toxumaları olub: "Kəndimizin Heydərlilər, Hacı Qaralılar, Qasımlılar, Gödəklər və başqa məhəllələri olub. Bu məhəllələrdə toxunan xalçalar da bir-birindən fərqlənirdi. Məsələn, Hacı Qaralılar məhəlləsində toxunan xalçada bir gül olurdusa, Heydərlilərdə iki gül olub. Ən uzun gəbəni də Heydərlilər toxuyarmış. Dekabrdan mart ayına qədər xalça toxumaq mövsümü idi.

Hacı Mövlanverdi, Hacı Qara, Hacı Qulu və başqa hacıların hər birinin 20-30 min qoyunu, dəvə sürüləri olub. Kürdmahmudluda xalçanın dəvə yunundan hazırlanmasına üstünlük verilib.

Hacı Mövlanverdinin həyat yoldaşı Kərbəlayi Nənəxanımın rəhbərliyi ilə 1880-1890-cı illərdə kəndimizdə toxuma işləri sürətləndirilib. Xalçaçılar toy mərasimlərinə hazırlıq görüb, xanlara hədiyyə üçün xalça toxuyublar.

Kərbəlayi Nənəxanımın və onun rəhbərlik etdiyi xalçaçıların toxuduğu xalçalar Naxçıvanda, Muğanda, Təbrizdə və Əhərdə şöhrət qazanıb. Onlar əsasən "Gül xalçası" toxuyublar. Bu xalçanın digər xalçalardan fərqi budur ki, xalça açıq rəngdə olub və ipləri dəvə yunundan hazırlanıb. "Gül xalçası" Azərbaycanın bir neçə bölgəsində olub, amma Qarabağın "Gül xalçası" toxunuşuna və ilmələrin keyfiyyətinə görə şöhrət qazanıb.

Kürdmahmudluda toxunan "Qızılquş xalçası" da məşhur olub. O xalçanı ancaq varlılar ala bilirmiş. Kürdmahmudluda qoyun yunundan hazırlanmış xüsusi geyim də məşhur olub".

Füzuli rayonunun Kürdmahmudlu kəndindən görünüş.
Avqust, 2015-ci il



**""Gül xalçası"nın ən yaxşısını ermənilər alıb..."**

T.Məmmədov hesab edir ki, xarici ölkələrin muzeylərində saxlanılan və erməni xalçası kimi təqdim olunan xalçaların sırasında Kürdmahmudlu xalçaları da var: "Kəndimizdə toxunan və şöhrət qazanan "Gül xalçası"nın ən yaxşısını ermənilər alıb, ermənilərin yaşadığı ərazilərə, xüsusən İraqa aparıb baha qiymətə satıblar. Xarici ölkələrin bir neçə muzeyində ermənilərin xalçası kimi təqdim edilən xalçalar var. Çox güman ki, həmin xalçalar Kürdmahmudlu xalçalarıdır. Azərbaycanda sovet hakimiyyəti qurulmamışdan öncə Kürdmahmudlu xalçalarını Bakı və Şəki tacirləri alıb satıblar".

Araşdırmaçı deyir ki, İmişlinin Kürdmahmudlu kəndi də kəngərlilərin qışlağı Göyçə, Naxçıvan və Kəlbəcər dağları olub. "Payızda Füzulinin Kürdmahmudlu kəndinə köçürmüşlər. Füzulinin Mandı kəndinin torpaqları da bizim, kəngərlilərin ərazisi olub. Sovet hökuməti o ərazini bizdən alıb ermənilərə verib. Bu hakimiyyət kəndimizin adını səhv yazmaqla bizə ikinci zərbəni vurub. Bizim kəndin adı Kürmahmudlu olub. Kəndimizin adındakı "Kür" sözü "dəlisov, igid, qorxmaz" mənalarını verir. SSRİ dövründə sənədlərə ya bilərəkdən, ya da diqqətsizlikdən "Kürmahmudlu" əvəzinə, "Kürdmahmudlu" yazıblar".





Xalçaçı Hüseynova Sayad Murtuza qızı (1934)

**Hərbi təcavüzün xalq sənətinə vurduğu zərbə**

Sakinlərlə söhbət zamanı məlum oldu ki, bir zamanlar xalçaçılıq sənəti ilə məşhur olan Kürdmahmudluda hazırda xalq sənəti məhv olmaq üzrədir. Bunun əsas səbəbi 1993-cü ildə erməni silahlı qüvvələrinin Füzulini işğal etməsi, Kürdmahmudlunun hərbi təcavüzə məruz qalmasıdır. Nəticədə yerli əhaliyə məxsus qədim, əvəzolunmaz qiymətli maddi-mədəni sərvətlər məhv edilmişdir. Belə ki, bir əsrdən çox tarixi olan xalçaların bir hissəsi yandırılmış və oğurlanmışdır.

Hazırda Kürdmahmudluda yaşayanların çoxu yaşlı nəslin nümayəndələridir. Gənclər və cavanlar işləmək üçün Bakıya üz tutublar. Xalçaçılar çətin vaxtlarda toxuduqları xalçaların bir qismini dəyər-dəyməzinə satmalı olublar.

**Bəy qızının ömrünü yaşayan xalçalar 7 evdə saxlanılır**

Kürdmahmudluda xalq sənəti indi də yaşayır, amma ənənəvi toxuculuq və boyaqçılıq tərzi yoxdur. Sevindirici haldır ki, hələ də evlərdə xalçaçılar və xalçalar var.

Onlardan biri, həmsöhbətim, onlarla xalq sənəti nümunəsinin müəllifi, 1934-cü il təvəllüdlü Hüseynova Sayad Murtuza qızıdır.





O, 1955-ci ildən xalçaçılıq sənəti ilə məşğuldur. Onun dediklərindən:

"Evdə anam xalça toxumayıb. Mənim atam bəy olub. Mən bəy nəslinin qızıyam. Toxumağı gəlin getdiyim evdə qayınanamdan öyrənmişəm. 21 yaşımdan xalça toxuyuram. 25 xalça, 2 klim, 12 palaz toxuyaraq onları yeddi övladıma hədiyyə vermişəm. Gəbənin görüntüsünün necə olacağını öncə dəsmalın üzərində çəkərək müəyyən edirdik. Xalçanı ev şəraitində toxuyurduq. İplərin rənglənməsində ağacların, narın və soğanın qabığından istifadə edirdik". S.Hüseynova vaxtilə toxuduğu xalçaların naxışlarından, rənglərindən danışır, həmin günlərin xoş xatirələri ilə yaşayır.

Onun dediklərindən məlum oldu ki, xalça toxuyan kəngərli qadınları xalçaların üzərindəki naxışları əsasən analarının, nənələrinin, ya da qonşularının vaxtilə vurduqları naxışlardan götürüblər.

Kəngərlilərdə məfrəş, xurcun, heybə, keçə, çul, palaz, cecim, yəhərüstü, örkən, çatı toxunulması da çox geniş yayılıb. Çünki bu tayfa köçə başlayanda adları çəkilənlərin hər birindən istifadə edib, onların hərəsi bir işə yarayıb. Əgər məfrəşə yorğan-döşək, pal-paltar yığılırdısa, heybəyə yüngül yol azuqəsi, xurcuna məişətdə istifadə olunan əşyalar doldurulurdu.

"Özü də ustadlar bunların hamısına xalça naxışları qoyublar. Harada maraqlı bir naxış görüblərsə, onu ya xalçanın, ya da kilimin üstünə vurublar", - deyə S.Hüseynova bildirdi.

**"Xalq sənətçiləri barəsində yazmasaydınız,.."**

Mərhum xalçaçı Əsray Mustafayevanın (1918-1993) 1961-ci ildə toxuduğu "Zənçir xalça" və "Quraq xalça", həmçinin 1970-ci ildə toxuduğu "Maral xalça" hazırda onun övladının evində qorunub saxlanılır.

"Xalq sənətçiləri barəsində yazmasaydınız, yaqin belə xalq sənətkarlarının nə vaxtsa mövcudluğunu yalnız qohum-əqrabası xatırlayacaqdı", - deyə Ə.Mustafayevanın adının çəkilməsini istəməyən övladı bildirir.

Onun yaşadığı evdə mərhum xalçaçıya məxsus və XIX əsrin sonuna aid poladdan hazırlanmış həvə qorunub saxlanılır. Xalçaçılar bu alətdən ilmələri bərkitmək və sıxlaşdırmaq üçün istifadə ediblər.

Kürdmahmudlu sakinləri ilə söhbət zamanı o da məlum oldu ki, sovet hakimiyyəti illərində bu elin xalçaçıları naxışlı xalçalarla yanaşı, xeyli sayda portret xalçalar da toxuyublar.

Kürdmahmudlunun qonşu kəndi Alxanlıda onlarla xalçanın müəllifi olan, 1922-ci il təvəllüdlü Şövkət Bəylərova ilə də görüşmək mənə nəsib oldu. Səhhətindəki problemlər səbəbindən onunla söhbət etmək mümkün olmasa da, onun şagirdi, qızı Validə Əliyeva ilə söhbətləşdik. 1948-ci il təvəllüdlü həmsöhbətim bildirir ki, Şövkət xanımın müəllifi olduğu xalq sənəti nümunələrindən hazırda evdə saxlanılan 1961-ci ildə toxunan klim və V.İ.Leninin portreti olan xalça var. "Biz xalçanı, kilimi kitablarda və qəzetlərdə olan şəkillərə baxaraq toxuyurduq", - deyə V.Əliyeva bildirdi.



Polad həvə. XIX əsrin sonları.
Kürdmahmudlu kəndi, Füzuli rayonu.

**Qeyd:**
Yazıda XX əsrdə Füzuli rayonunun Kürdmahmudlu kəndində toxunmuş xalçaların fotoşəkillərindən istifadə olunub.